Azərbaycan.- 2024.- 23 avqust (№ 180).



# *Türkiyə mediası:* "Putinin Bakıya səfəri zamanı "Şimal-Cənub" dəhlizinin əhəmiyyəti vurğulanıb"

Türkiyə mətbuatı Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərinin yekunlarını şərh etməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, Türkiyənin aparıcı mətbu orqanlarından biri olan "Hürriyət" qəzeti avqustun 22-də "Putinin Əliyevə təklifi" sərlövhəsi altında dərc etdiyi məqalədə Azərbaycan ilə Rusiya arasında nəqliyyat və logistika sahəsində əməkdaşlıq mövzusuna toxunur.

Nəşr yazır ki, Vladimir Putinin Cənubi Qafqaza əvvəlki səfərlərindən fərqli olaraq, Rusiya Federasiyasının Prezidenti bu dəfə Ermənistana səfər etmədən birbaşa Azərbaycana gəlib. Məqalənin müəllifi Abdulkadir Selvi qeyd edir: "Rusiya liderinin səfər proqramında qeyri-rəsmi şəraitdə, daha doğrusu, Prezident İlham Əliyevin evində müzakirələrin də yer alması tərəflərin danışıqlara verdiyi əhəmiyyətin göstəricisidir".




Məqalədə Ukrayna ətrafında yaranmış vəziyyətlə əlaqədar Rusiya iqtisadiyyatının üzləşdiyi sanksiyalar və embarqolar, həmçinin Rusiya ilə İran arasında ticarət əlaqələri baxımından "Şimal-Cənub" marşrutunun artan əhəmiyyəti diqqət mərkəzindədir.

Müəllif yazır: "Bu dəhliz İranın Fars körfəzindəki Bəndər-Abbas limanını Rusiya ərazisi ilə birləşdirir. Onun tam istifadəsinə mane olan yeganə əngəl marşrutun müəyyən hissələrində müasir dəmir yolu infrastrukturunun olmamasıdır. Əgər relslər modernləşdirilsə və onun çatışmayan hissəsi tikilsə, Azərbaycandan keçən yük axını 20 milyon tona çata bilər".

Məqalədə Rusiya tərəfinin İranın Rəşt və Astara şəhərləri arasında 160 kilometr uzunluğunda dəmir yolunun tikintisini, o cümlədən onun Astara sərhədindən Azərbaycanın Ələt qəsəbəsinə qədər olan 190 kilometrlik hissəsinin modernləşdirilməsini maliyyələşdirməyə hazır olduğu vurğulanır. Türkiyə qəzetinin yazdığına görə, Putin Bakıya ikigünlük səfəri zamanı Azərbaycan tərəfinə dəmir yollarının modernləşdirilməsi üçün kredit ayrılmasını təklif edib.

Müəllif daha sonra yazır: "Azərbaycan "Şimal-Cənub" marşrutu üçün ayrılmış krediti bu dəhlizin istismarından əldə olunan gəlirlər hesabına ödəməyi təklif edir, Tehran isə Rusiya krediti üzrə şərtləri və faiz dərəcələrini nəzərdən keçirir. Eyni zamanda İran İslam Respublikasında keçirilən son seçkilər fonunda hökumətin tam formalaşmaması səbəbindən Moskva ilə kreditləşməyə dair tamhüquqlu dialoq hələ başlamayıb".

Məqalənin müəllifi Türkiyənin "Kolin İnşaat" şirkəti tərəfindən Azərbaycanda həyata keçirilən Yalama dəmir yolu stansiyasının modernləşdirilməsinə də diqqət çəkir.